**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin**
**“ 04 “ oktyabr ” 2019 - cu il tarixli**
**F- 327 nömrəli əmri ilə təsdiq edilmişdir**

# “Ümumi təhsil müəssisələrinin uşaq birliyi təşkilatının rəhbərləri arasında ən yaxşı təqdimat müsabiqəsi”nin keçirilməsi barədə

## Əsasnamə

### 1. Müsabiqənin məqsədi

Müsabiqə ümumi təhsil müəssisələrində uşaq birliyi təşkilatının rəhbərləri ilə aparılan işləri daha da gücləndirmək, onların fəaliyyətinə stimul vermək, qabaqcıl və yaradıcı uşaq birliyi təşkilatının rəhbərlərinin təcrübəsini öyrənmək və yayılmasına nail olmaq məqsədilə təşkil edilir.

### 2. Müsabiqənin keçirilmə qaydaları

Müsabiqə Bakı şəhəri ümumi təhsil müəssisələrinin uşaq birliyi təşkilatının rəhbərlərinin iştirakı ilə 2019-cu ilin oktyabr-noyabr aylarında iki mərhələdə keçirilir:

I mərhələ Bakı şəhərinin rayonları üzrə 07 oktyabr - 15 noyabr 2019-cu il.

II mərhələ Bakı şəhəri üzrə 16 - 30 noyabr 2019-cu il.

Müsabiqədə iştirak edəcək ümumi təhsil müəssisələrinin uşaq birliyi təşkilatının rəhbəri haqqında məlumatlar sifariş formasına uyğun olaraq 25 oktyabr 2019-cu il tarixədək Təşkilat Komitəsinə təqdim edilməlidir.

Bakı şəhərinin rayonları üzrə keçirilən mərhələdə qalib gələn ən yaxşı təqdimatlar şəhər mərhələsində iştirak etmək hüququ qazanır. Hər iki mərhələdə təqdimatların dinlənilməsi ixtisaslı kadrlardan təşkil olunmuş Münsiflər heyəti tərəfindən aparılacaqdır.

**SİFARİŞ formması**

“Ümumi təhsil müəssisələrinin uşaq birliyi təşkilatının

rəhbərləri arasında ən yaxşı təqdimat müsabiqəsi”nin

**Təşkilat komitəsinə**

| № | Ümumi təhsil müəssisəsi | Uşaq birliyi təşkilatının rəhbərinin adı, soyadı və ata adı | Mövzunun adı | İştirakçının əlaqə telefonu |
|---|---|---|---|---|
| | | | | |

**3. Müsabiqənin mövzuları**

Müsabiqənin iştirakçıları “Ümumi təhsil müəssisələrinin uşaq birliyi təşkilatının rəhbərləri arasında ən yaxşı təqdimat” başlığı altında aşağıdakı mövzulardan seçməkdə sərbəstdirlər.

1.Ümumi təhsil müəssisələrində uşaq birliyi təşkilatının rəhbərinin fəaliyyətinin təkmilləşdirilməsində əsas istiqamətlər

2. Məktəb-valideyn əlaqələrinin qurulmasında uşaq birliyi təşkilatının rəhbərinin rolu

3. Uşaq və yeniyetmələrin istedad, bacarıq və qabiliyyətlərinin üzə çıxarılmasında uşaq birliyi təşkilatının rəhbərinin rolu

4. Ümumi təhsil məktəblərində müsabiqə, ədəbi-bədii gecələr və intellektual oyunların təşkili təcrübəsindən

5. Uşaq birliyi təşkilatının rəhbərinin illik Fəaliyyət planının hazırlanması mexanizmləri

6. Uşaq birliyi təşkilatının rəhbərinin şagirdlər arasında humanist dəyərləri formalaşdırılması təcrübəsindən

7. Uşaq birliyi təşkilatının rəhbərinin fəaliyyətinin məzmun və forması

8. Tərbiyə işləri üzrə direktor müavinin (təşkilatçı) və uşaq birliyi təşkilatının rəhbərinin birgə fəaliyyəti təcrübəsindən

**4. Müsabiqəyə təqdimatların təqdim olunması üçün ümumi qaydalar**

1. Müsabiqəyə təqdim olunan təqdimatlar Microsoft Power Point proqramında (slayd) hazırlanmalı;
2. Təqdimatın mətni Microsoft Word proqramında oxuna bilən faylda tərtib olunmalı;
3. Təqdimatlar 10 dəqiqədən çox olmamalıdır.
4. İştirakçıların təqdimatları Münsiflər heyəti tərəfindən dinləniləcəkdir.

## 5. Təqdimatların qiymətləndirmə meyarları

1. Əlaqədarlıq: təqdimatların müsabiqənin mövzusuna uyğunluğu;
2. Nəzəriyyə: təqdimatın nəzəri əsaslarının olması;
3. Təqdimat: əsaslı təhlil və yaradıcı yanaşma (buraya daxildir: ümumi yanaşma, məlumatın toplanması və təhlili);
4. Nəticə: əldə edilmiş nəticənin aydın və səlis təqdim olunması;
5. Təqdimatın əhəmiyyəti: təqdimatın mövcud elmi biliklərin və təcrübənin inkişafına töhfə.

## 6. Qaliblərin mükafatlandırılması

1. Qaliblər Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılacaq.
2. Müsabiqədə 6 iştirakçıya diplomlar ( bir nəfər -I yer, iki nəfər- II yer, üç nəfər- III yer) və hədiyyələr təqdim olunacaq.